# Ulu Öndər Heydər Əliyev obrazı Azərbaycan poeziyasında

**Mərziyyə Nəcəfova**
Filologiya elmləri doktoru, dosent
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: necefova.merziyye@mail.ru

**Annotasiya.** Məqalədə Azərbaycanın müstəqilliyi və azadlığı uğrunda mübarizə aparan Ulu Öndərin ədəbiyyatda, xüsusilə poeziyamızda yaranan Ulu Öndər Heydər Əliyev obrazından bəhs edilir. Ulu Öndərə həsr edilən şeirlər üç mərhələdə nəzərdən keçirilir. Birinci mərhələdə Ulu öndərin xalqı xilas etmək üçün Azərbaycana gəlməsinə həsr olunan şeirlər təhlil edilir. İkinci mərhələdə Heydər Əliyevin müdrikliyi, əvəzsiz şəxsiyyət kimi yaddaşlara köçməsi və cismani olaraq bizi tərk etməsinə həsr edilən şeirlər verilir. Üçüncü mərhələdə Ulu öndərin Qarabağ torpaqlarının azad olunmasından sonra böyük hörmət və sevgi ilə poeziyamızda anılması mövzusunda şeirlər nəzərdən keçirilərək, Qabilin, Xəlil Rza Ulutürkün, Zəlimxan Yaqubun, Nəriman Həsənzadənin və başqalarının şeirləri təhlil edilir.
**Açar sözlər:** Ulu Öndər, müstəqillik, vətən

**Məqalə tarixçəsi:** göndərilib – 01.03.2023; qəbul edilib – 15.03.2023

# The image of the great leader Heydar Aliyev in Azerbaijani poetry

**Marziyya Najafova**
Doctor of Philology, associate professor
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: necefova.merziyye@mail.ru

**Abstract.** In the article is dealt with the image of the great leader Heydar Aliyev, who fought for the independence and freedom of Azerbaijan in literature, especially in our poetry. The question of the embodiment of his work as the founder and creator of literary policy in poetry is contained. The poems dedicated to great leader Heydar Aliyev is reviewed in three stages. In the first stage is analyzed the poems dedicated to coming of Great Leader to Azerbaijan for saving the people. In the second stage is given the poems dedicated to Heydar Aliyev's wisdom, being remembered as an invaluable personality in the memories and his physical absence. In the third stage is reviewed the poems about the commemoration of Heydar Aliyev in poetry with great respect and love in our poetry after the liberation of the lands of Karabakh. The poems of the poets such as Gabil, Zalimkhan Yagub, Nariman Hasanzade and others are analyzed in the article.
**Keywords:** Great Leader, independence, motherland

**Article history:** received – 01.03.2023; accepted − 15.03.2023

## Giriş / *Introduction*

Görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycan dövlətinin ədəbiyyat siyasətinin banisi və yaradıcısıdır. "Ən yeni dövr Azərbaycan ədəbiyyatının inkişafında Ümummilli Lider Heydər Əliyevin ədəbiyyat siyasətinin böyük rolu və təsiri olmuşdur. Əslində, Azərbaycan xalqının son əlli ildəki ədəbiyyatı Heydər Əliyev epoxasının ədəbiyyatıdır. Azərbaycan Respublikasının Prezidenti

İlham Əliyev müstəqillik dövrünün ədəbiyyatı haqqında Heydər Əliyev təlimini yeni müddəalarla zənginləşdirərək, yaradıcı şəkildə inkişaf etdirir. Hesab edirik ki, ən yeni Azərbaycan ədəbiyyatının qarşısında duran bir məsul vəzifə də yeni tarixi epoxanın fonunda görkəmli dövlət xadimi Heydər Əliyevin mükəmməl, hərtərəfli şəkildə işlənmiş, ciddi ədəbi-tarixi meyarlara cavab verən ümumiləşmiş, parlaq bədii obrazını yaratmaqdan ibarətdir" [5, s.3].

## Əsas hissə / *Main part*

Ulu Öndər haqqında yazılan məqalə və kitabları oxuyarkən ilk diqqətimi çəkən Heydər Əliyevin Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürk haqqında söylədiyi möhtəşəm fikirlər oldu: "Mustafa Kamal Atatürkün xidmətləri bir də ondan ibarətdir ki, o, Türkiyə Cümhuriyyətinin nəinki əsasını, təməlini qoydu, həm də onu qurdu, onun bütün təsisatlarını yaratdı, böyük dövlət etdi, bugünkü nəslə, gənclərə əmanət edərək özünü əbədiyyətə qovuşdurdu" [1, s.9]. Bu fikirləri bu gün böyük Azərbaycan xalqı Ulu Öndər Heydər Əliyev haqqında söyləyir. Azərbaycanın elə sahəsi yoxdur ki, Heydər Əliyevin o sahənin yenidən qurulmasında və inkişafında böyük rolu olmasın. Məhz bu səbəbdən hər zaman tariximizin əkiz qardaşı olan söz sənətimizdə − ədəbiyyatımızda ölməz Ulu Öndərin obrazını görürük. Bu nümunələr Heydər Əliyev dühasını, müdrikliyini və ölümsüzlüyünü əsrlərdən əsrlərə möhürləyəcək.

*Azadlıq allahıtək əyləşib öz yerində,*
*Yerin, göyün nuru var peyğəmbər gözlərində,*
*Sadəliyi nur saçır, əzəməti dərində.*
*Gedir polad çiynində Kəpəz, Qoşqar boyda yük,*
*Dədə Heydər − Atatürk.* [12]

Müasir poeziyamızda Türk dünyasının ölməz oğulları − Atatürk və Heydər Əliyev obrazları bir arada poetikləşir. Qabilin "Dədə Heydər − Atatürk" başlıqlı şeirində Azərbaycan və Türkiyə birliyindən bəhs edilir və hər iki qurucunun fəaliyyəti poetik ifadədə yer alır:

*Dərin mavi gözləri sakit yanan od-ocaq,*
*Alovunda düşmənlər yanacaq, kül olacaq,*
*Qaranlıqda işıqdır − o işığa yol açaq.*
*Məsləki varlığından min qat böyükdür, böyük,*
*Böyüklüyün rəmzidir Dədə Heydər − Atatürk.* [10]

Şairin hər iki dövlət başçısının gözlərinin dərinliyi və rəngini sakit yanan ocağa bənzətməsi və bu sakit alovdan düşmənlərin yanaraq kül olması ifadəsi incə bir tapıntıdır. İşlənən ifadə olmasına baxmayaraq, buradakı reallıq oxucusunu da təsirləndirir. Müəllif böyüklük rəmzi kimi hər iki sərkərdənin obrazını yarada bilir.

Qabil poeziyasında Heydər Əliyev obrazı dəfələrlə poetikləşmişdir. Onun poeziyasında Ulu Öndərə olan böyük və əvəzsiz sevgi "Ömür həbləri" romanına 16 misralıq avtoqrafında da əksini tapmışdır. 1991-ci ildə ölkədə olan bəzi haqsızlıqları şeirə gətirərək, Ulu Öndərin böyüklüyünü və əvəzsiz qüdrətini poetikləşdirərək bəzi nadanlara təqdim etmişdir. Şair Ulu Öndərin 75 illik yubileyinə təbrik teleqramında da Ulu Öndərin sənətə, sənətkara verdiyi qiyməti və dəyəri əks etdirməklə yanaşı, Azərbaycan xalqının müzəffər zəfər qazanmasında uzaqgörənlik nümayiş etdirmişdir:

*Əyilməz uca başın*
*Millətin yaraşığı.*
*Şanlı 75 yaşın*

*Qüdrətin yaraşığı.*
*Sənətə, sənətkara,*
*Haqq-sayın var olsun!*
*Bənzə ulu dağlara, zirvələrin qar olsun!*
*Qoy sabahkı zəfərin*
*Müzəffər zəfər olsun!* [10]

Tarixdə dastan olan iki dahini poeziyasında alqışlayan şairlərdən biri də Əlirza Həsrətdir. Şair son zamanlar Qarabağ torpaqlarının azadlığı ilə bağlı yazdığı şeirlərdə Ulu Öndərin Azərbaycanın gələcəyi üçün gördüyü işlərin qalibiyyətimizdə rolundan bəhs edir:

*Tarixdə dastan olub iki dahi, iki ər,*
*Biri öndər Atatürk, biri də dahi Heydər.*
*Bizimlədir ədalət, bizimlədir bu hünər,*
*Deməsinlər, o torpaq qarı düşmən taxtıdır,*
*Qarabağın işğaldan azad olmaq vaxtıdır.* [6, s.14]

Ulu Öndərin qazandığı hər uğur poeziyamızın ana mövzusuna çevrilmişdir. Ulu Öndərin obrazını hər zaman şairlərimiz dastan qəhrəmanlarımızla bir arada tutublar. 1998-ci ildə Ulu Öndərin planetimizin siyasi xadimləri arasında "Dünyada ilin adamı" fəxri adına layiq görülməsi misralarımızın bəzəyi olmuşdur. Hüseyn Kürdoğlu "Min bir ilin adamı" başlıqlı şeirində Ulu Öndərin birinciliyinin nəinki bir ilə, min bir ilə sığışdığını ifadə edir:

*Millətimin ağ alnından parladı,*
*İstiqlalın qaya çapan fəryadı,*
*Qoy var olsun ustadların ustadı.*
*Bir il nədir, min bir ilin adamı,*
*Bizim yurdun, bizim elin adamı.* [9, s.4]

Əslində, şair ürəyindən su içən və qələmi ilə portretləşən bu deyim öndər sevənlər adından "Bir il nədir, min bir ilin adamı, bizim yurdun, bizim elin adamı" ifadəsində qürurverici hisslər aşılayır. Bu, Ulu Öndərə verilən ən gözəl poetik dəyərdir. Ulu Öndərin ədəbiyyata və ədəbiyyat adamlarına ayırdığı zaman və qayğı hər zaman şairlərin yaradıcılığında yer almışdır. Bəxtiyar Vahabzadənin, Mirvarid Dilbazinin, Fikrət Qocanın, Qabilin, Zəlimxan Yaqubun, Nəbi Xəzrinin, Ramiz Məmmədzadənin, Vaqif Bəhmənlinin, Xanım İsmayılqızının, Rafiq Yusifoğlunun, Şövkət Horovlunun, Sərvaz Hüseynoğlunun, Əlirza Xələflinin və yüzlərcə şairin şeirlərində Ulu Öndərin dolğun və həmişəyaşar obrazını görmək olur. Xüsusilə Zəlimxan Yaqubun əsərlərində Ulu Öndər obrazı bütün tamlığı ilə təcəssüm edilir:

*Həqiqətə tapınan mərd insanın ömrüdür*
*Sənin mübarək ömrün!!!*
*Ən çətin sualların ən dürüst cavabıdır,*
*Ulu Dədə Qorqudun abidə kitabıdır,*
*Kaşğarlı divanıdır, "Koroğlu" dastanıdır,*
*Fələkləri yandıran Füzulinin ahıdır,*
*Xətainin çatdığı uca söz dəryasıdır.*
*Hər açılan sabahın, nurlu danın ömrüdür*
*Sənin mübarək ömrün!!!* [13, s.19]

Zəlimxan poeziyasında Ulu Öndərin həyatı və yaradıcılığı zərrə-zərrə incələnir, ilmə-ilmə hörülür. Onun əsərlərində Heydər Əliyevin obrazı o qədər dəqiq, real və tam şəkildə təcəssüm edilir ki, Ulu Öndəri görməyən bir gənc belə onun haqqında tam təəssürat əldə edə bilir.

Ulu Öndərin cismani yoxluğu poeziyamızda yaddaqalan, unudulmayan hisslər yaratmışdır. Nəbi Xəzrinin, Fərqanə Mehdiyevanın, Ramiz Məmmədzadənin, Dayandur Sevginin, Eldar İsmayılın, Əli Rza Xələflinin və başqalarının yüzlərcə poeziya nümunələrində ölməz öndərimizə olan əvəzsiz sevgi və sədaqət hisslərini görə bilirik:

*Gedir çiynində öz millətinin,*
*Gedir son mənzilə, əbədiyyətə.*
*Gedir dahi öndər Heydər Əliyev,*
*O, nələr vermədi bu məmləkətə.* [2, s.9]

Bu illər ərzində Ulu Öndərə həsr edilən şeirlər silsilə olaraq yazılmış və yazılmaqdadır. "Özün olmasan da, əməllərin yaşayır" deyərək onun gördüyü işlər şeirimizin əbədi mövzusu olaraq yaranır və yaranmaqdadır. Rafiq Yusifoğlu səmimi duyğularını belə ifadə edir:

*Çiçəklənən ölkəmiz,*
*Gülüstana oxşayır.*
*Özün olmasan belə,*
*Əməllərin yaşayır.* [14]

*Onu zaman seçib, nə bəxtiyarıq,*
*Mətin addımlıdır, qartal baxışlı.*
*İradəsi bütöv, məqsədi aydın,*
*Tarixdir silinməz onun yaddaşı.* [4]

*Bir insan ömründən söz açıram mən,*
*O, Heydər ömrüdür, sönməyəcəkdir.*
*Canıtək sevdiyi milyonlar qəlbən,*
*Onun haqq yolundan dönməyəcəkdir.* [15, s.19]

Ulu Öndərə həsr edilən şeirlər azalmadı. Onun gördüyü işlər zaman keçdikcə bu xalqın imdadına yetdi:

*Bilirəm ki, dünənimiz bu günün keçmişi deyil,*
*Hər dövrdə bir şəxsiyyət tarixin vərdişi deyil,*
*Bir ölkəni xilas etmək bir insanın işi deyil,*
*Allah səni öz nurundan yaratmışdır, Heydər baba.* [3]

Heydər Əliyevin açdığı böyük yol Azərbaycan xalqının illərdir, addımladığı yol oldu. İllərlə Qarabağ savaşını sülhlə dindirməyə çalışan Ulu Öndər Azərbaycan Ordusunu yenidən yaratdı, möhkəmlətdi və qalib ordu olması üçün istiqamətləndirdi. Gördüyü işlər sözdə deyil, əməllərdə yaşadı, getdiyi yol Azərbaycan xalqını zəfərlərə doğru istiqamətləndirdi. Zəfər yolumuz Heydər Əliyev yolundan İlham Əliyevə ötürüldü:

*O, qurduğu rəşadətli ordumuz,*
*Qarabağı yad əllərdən qurtardı!*
*Azərbaycan xilaskarın yolunu,*
*İlham ilə zəfərlərə apardı!* [11]

Qarabağ torpaqlarının azad edilməsində yüksəklərə qalxan Ali Baş Komandanın yumruğu Heydər Əliyev ideyasından güclənmiş, birləşmiş və dəmir yumruğa çevrilmişdi. Bu çağırış neçə illik müdrikliyin, siyasətin, birliyin nəticəsi idi. Azərbaycan poeziyası Qarabağ torpaqlarının azadlığı mövzusunda da Ulu Öndər ideyalarını, Ulu Öndər yolunu təcəssüm etdirdi. Nəriman Həsənzadə Şuşada Ali Baş Komandan İlham Əliyevin ata məzarı önündə fəxrlə dediyi kəlamları poetikləşdirərək, Heydər Əliyev ruhunun şad olmasını, Ali Baş Komandanın "Mən xoşbəxt oğulam ki, ata vəsiyyətini yerinə yetirmişəm!" ifadəsini Azərbaycan poeziyasının incisinə çevirdi:

*Ulu Öndər "Şuşa" deyə*
*Nitq eyləyirdi,*
*−Vətən, ana həsrətidir*
*Şuşa həsrəti.*
*Xoşbəxtəm ki, oğul İlham*
*Belə deyirdi,*
*Mən yerinə yetirmişəm*
*Bu vəsiyyəti.* [7, s.3]

Torpaqlarımızın azadlığı Ulu Öndərin ruhunu şad etdi. Onun ideyaları, arzu və Azərbaycana olan sevgisi oğlu, davamçısı − Ali Baş Komandan İlham Əliyev cənablarının əməllərində yaşadı və poeziyamızın zirvəsinə həkk oldu. Bir ata ruhu o zaman şad olur ki, onun davamçısı olan övladına "Sənə halaldır, sən oğulsan", − deyirlər:

*Bütün dünyanın dilində hünərini danışdıran,*
*Yatıb qalan beyinləri düşünməyə çalışdıran,*
*Sən oğulsan!*
*Hamımızın ürəyinə ürəklə yol çəkdirmisən,*
*Bizə əyri baxanları dizi üstə çökdürmüsən,*
*Sən oğulsan!*
*Tək deyilsən, ordun da var, səni sevən xalqın da var,*
*Qələbələrə aparan əzmin də var, andın da var,*
*Sən oğulsan!*
*Bu müqəddəs torpaqları alacağıq dedin − aldın,*
*Düşmənləri yurdumuzdan qovacağıq dedin − qovdun,*
*Sən oğulsan!* [8, s.3]

Təhlilə cəlb edilən şeirlər bir daha Ulu Öndərin ədəbiyyatımızda, xüsusilə poeziyamızda yerinin, hörmət və sevgisinin əvəzsizliyini əks etdirir. Ulu Öndərin portreti, obrazı poeziyamızda real, səmimi və böyük məhəbbətlə təcəssüm edilmişdir. Ulu Öndər ədəbiyyata, sözə, sənətə hər zaman böyük önəm verdiyi üçün söz, sənət adamları onun yaradıcılığına bu prizmadan yanaşmışlar. Apardığımız araşdırmalardan aydın olur ki, iyirminci əsrin sonlarından Ulu Öndər obrazı ədəbiyyatımızın ana mövzusu olaraq yer alır.

## Nəticə / *Conclusion*

Əsrlər keçəcək, müstəqilliyimiz, azadlığımız uğrunda mübarizə aparan Ulu Öndər unudulmayacaq, yaddaşlara köçəcək, söz-söz, ilmə-ilmə ədəbiyyatımızın, poeziyamızın incisinə çevriləcək.

## Ədəbiyyat / *References*

1. Əliyev Heydər. “Atatürk fenomeni”, “Atatürkün xatirələri və Atatürk haqqında xatirələr”. – Bakı: Elm, 2006.
2. Dayandur Sevgin, “Millətin xilaskarı”. – Bakı: Elm, 2000.
3. Elşad, B. “Ümumimilli Lider Heydər Əliyev”. Təhsil.com.az.
4. Fəridə, L. “Onu zaman keçib”. Təhsil.com.az.
5. Həbibbəyli, İ. “Heydər Əliyevin böyük ədəbiyyat siyasəti”. “Ədəbiyyat qəzeti”, 11.05.2023.
6. Həsrət, Ə. “Barıt qoxulu çiçək”. – Bakı, 2021.
7. Həsənzadə, N. “ Cənab Ali Baş Komandan halaldır sizə”. “Ədəbiyyat qəzeti”, 9 iyun, 2022.
8. İsmayılqızı, X. “Sən oğulsan”. “Ədəbiyyat qəzeti”, 20 noyabr, 2020.
9. Kürdoğlu, H. “Min bir ilin adamı”. “Ədəbiyyat qəzeti”, 9 yanvar, 1998.
10. Qabil. “Dədə Heydər-Atatürk”, çetinbayramoğlubaku, Vordpress.com
11. Qaraçaylı, V. “Yüz il öncə işıq saçdı dünyaya”. “Ədəbiyyat qəzeti”, 9 may 2023.
12. Rza, X. “ Dədə Heydər-Atatürk”. Təhsil.com.az.
13. Yaqub, Z. “Əbədiyyət dastanı”, 1-ci kitab, “Böyük ömrün dastanı”. – Bakı: Şərq-Qərb, 2013.
14. Yusifoğlu, R. “Ulu öndər”. Təhsil.com.az.
15. Yusifoğlu, İ. “O, günəş ömrüdür, sönməyəcəkdir”. – Bakı: Elm, 2023.

## Образ великого лидера Гейдара Алиева в азербайджанской поэзии

**Марзия Наджафова**
Доктор филологических наук, доцент
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: necefova.merziyye@mail.ru

**Резюме.** В статье рассказывается об образе великого лидера Гейдара Алиева, боровшегося за независимость и свободу Азербайджана, в литературе, особенно в поэзии. Речь идет о воплощении его деятельности как основоположника и творца литературной политики в поэзии. Стихи, посвященные великому лидеру Гейдару Алиеву, рассматриваются в три этапа. На первом этапе анализируются стихи, посвященные приходу Великого Вождя в Азербайджан в целях работы на благо народа. На втором этапе представлены стихи, посвященные мудрости Гейдара Алиева и его памяти как незаменимой личности; несмотря на уход от мирского существования он все же остается недалеко от нас. На третьем этапе с большим уважением и любовью рассматриваются стихи, посвященные памяти Гейдара Алиева в поэзии после освобождения земель Карабаха от оккупации. В статье анализируются стихи Габиля, Залимхана Ягуба, Наримана Гасанзаде и других поэтов.
**Ключевые слова:** Великий Вождь, независимость, родина